# Misirdəki Britaniya Universitetində COP29 konfransı ilə bağlı tədbir keçirilib

Azərbaycanın Misirdəki səfiri Elxan Poluxovun, BMT nümayəndələrinin və misirli alimlərin və gənclərin iştirakı ilə Misirdəki Britaniya Universitetində noyabrda Bakıda keçiriləcək COP29 iqlim konfransının əhəmiyyəti və misirli gənc mütəxəssislərin bu mötəbər tədbirdə fəal iştirakı ilə bağlı müzakirələr aparılıb.

AZƏRTAC Misirdəki Britaniya Universitetinin mətbuat açıqlamasına istinadla xəbər verir ki, tədbirdə çıxış edən BMT İnkişaf Proqramının (UNDP) Misir üzrə nümayəndəsi Françesko Fraskatti Azərbaycanda keçiriləcək COP29 iqlim konfransının əhəmiyyətindən danışıb. O qeyd edib ki, Misirdə baş tutan COP27 və BƏƏ-də təşkil edilən COP28 konfransları iqlim dəyişikliyi ilə mübarizə sahəsində mühüm mərhələlər oldu. Azərbaycanda keçiriləcək COP29 isə bu sahədə daha böyük uğurlarla əlamətdar ola bilər.

Səfir E.Poluxov iştirakçılara COP29 iqlim konfransına hazırlıq prosesi haqqında ətraflı məlumat verib, bu mötəbər tədbirin ən yüksək səviyyədə keçirilməsinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılan Təşkilat Komitəsinin fəal iş apardığını vurğulayıb. O əlavə edib ki, diplomatik nümayəndəliklər Azərbaycandakı COP29 iqlim konfransı çərçivəsində birgə işləmək üçün beynəlxalq tərəfdaşları cəlb etməyə çalışırlar. Səfir, həmçinin iqlim sammitinin gənclər tərəfindən hazırlanan simulyasiya modelində iştirak edən Britaniya Universiteti tələbələrinin fəaliyyətini yüksək qiymətləndirib.

Misirdəki Britaniya Universitetinin rektoru Mohammed Lütfi çıxışında qeyd edib ki, onun rəhbərlik etdiyi ali təhsil ocağının iqlim tədqiqatları ilə məşğul olan alimləri COP29 konfransına hazırlıq məsələlərində Azərbaycanın səfirliyi ilə sıx əməkdaşlıq etməyə hazırdır. Onun sözlərinə görə, misirli və universitetdə çalışan əcnəbi alimlər bununla bağlı yeni təşəbbüslərlə çıxış edəcəklər. Rektor diqqətə çatdırıb ki, Misirdəki Britaniya Universiteti artıq iki ildir BMT-nin İnkişaf Proqramı ilə birlikdə ekologiya layihələri həyata keçirir.

Mohammed Lütfi Azərbaycanda keçiriləcək COP29 iqlim konfransına töhfə vermək məqsədilə BMT-nin himayəsi altında tələbələrdən ibarət Təşəbbüs qrupunun yaradılması təklifini irəli sürüb. O, habelə tələbələrin gənclərdən ibarət iqlim sammiti simulyasiyası modelində fəal iştirak etdiklərini vurğulayıb. Rektor bildirib ki, bu təşəbbüsdə dünyanın 60 ölkəsindən 65 universitetin 300 tələbəsi, habelə 100-dən çox alim və ekspert təmsil olunur. “COP27 və COP28 iqlim konfranslarında təcrübələrini təqdim etdikləri birinci və ikinci tədbirlərdə iqlim sammitinin simulyasiya modelində iştirak edən Britaniya Universitetinin tələbələri, həmçinin Bakıda keçiriləcək COP29 iqlim sammitində iştirakla bağlı arzularını bildiriblər”, -deyə Mohammed Lütfi qeyd edib.

**AZƏRTAC**
**2024, 1 mart**